10.61764/lasr.1.2023.208-212

G 1 G 12

**Amal Həsənli**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*i.f.d.*
*amalhasanli888@gmail.com*
**Əli Hüseynli**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*magistrant*
*alihuseynli6162@gmail.com*

# XARİCİ TİCARƏTİN MAHİYYƏTİ

*Məqalə xarici ticarətin mahiyyəti, əhəmiyyəti haqqında geniş məlumat verilir. Həmçinin məqalədə verilmiş məlumatların təhlilində müqayisə və sintez metodlarından istifadə edilmişdir.*

*Məqalədə belə bir nəticəyəyə gəlinmişdir ki, resurslarından səmərəli istifadə edən, ixracı genişləndirən ölkələr digərləri ilə müqayisədə daha çox xarici valyuta əldə edir, iqtisadi nəticələrini yaxşılaşdırır.*

***Tədqiqatın məqsədi*** - xarici ticarət olmadan, hər hansı ölkəni təssəvvür belə etmək olmaz, çünki ölkənin gələcək inkişafında, xalqın rifahının yaxşılaşdırılmasında xarici ticarətin rolu böyükdür. Bu məqalədə, tədqiqatın əsas məqsədi, həm xarici ticarətin ölkənin iqtisadi həyatında vacibliyini dərk etmək, həm Azərbaycanın xarici ticarətdəki mövcud vəziyyətinin inkişaf istiqamətlərini müəyyənləşdirmək, həm də onun mənfi və müsbət cəhətlərini araşdırmaqdır.

***Tədqiqatın metodologiyası***-tədqiqatda müqayisə, müşahidə, ümumiləşdirmə, təhlil, sintez kimi metodlardan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri***-dünya ölkələri siyasi, iqtisadi quruluşundan, inkişaf səviyyəsindən asılı olmayaraq xarici ticarətsiz inkişaf edə bilməzlər. Buna görədir ki, ölkələr bir-birləri ilə qarşılıqlı şəkildə öz iqtisadi maraqları üçün əməkdaşlıq edirlər.

***Açar sözlər:*** *xarici ticarət, beynəlxalq iqtisadi münasibətlər, idxal və ixrac, qloballaşma*

## Giriş

Ticarət əmək məhsullarının insanların öz istifadəsi üçün yox, satışı üçün istehsal edildiyi mərhələdə meydana gəlib. Beynəlxalq ticarət dünyanın bütün ölkələrinin xarici ticarətinin məcmusu şəklində ifadə olunmuş əmtəə-pul fəaliyyət sahəsi, xarici ticarət isə milli təsərrüfatlar arasında əmttə və xidmətlərin dövlət tərəfindən sənədləşdirilmiş mübadiləsidir [2, s.68]. Hər bir ölkə milli iqtisadiyyatının inkişafı üçün, daxili imkanları ilə bərabər, xarici ticarətdən də səmərəli şəkildə istifadə etməlidir. Ona görə də, bu mövzunun öyrənilməsi vacib və aktualdır. Xarici ticarət anlayışı, yalnız ayrıca götürülən ölkə üçün istifadə oluna bilər. Bu anlayış, bir dövlətin başqa ölkələrlə ticarət əlaqələrinə məqsədyönlü təsiri kimi qəbul edilir. Xarici siyasətin əsas tərkib hissələrinə xarici ticarət siyasəti (idxal və ixrac siyasəti), xarici investisiyaların cəlb edilməsi, valyuta siyasəti, regionlarla xarici iqtisadi əməliyyatların coğrafi balansı üzrə vacib məsələlərin həllini və ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsini aid etmək olar [5, s. 314] .

Dövlətin ümumi iqtisadi siyasətinin əsas tərkib hissəsi olan xarici ticarətin əsas vəzifəsi,

ölkənin daxili istehsalının və sərvətinin artırılması üçün əlverişli mühitin yaradılmasıdır. Xarici ticarət iqtisadi əməkdaşlığın ən qədim və geniş yayılmış versiyasıdır və ən son araşdırmalardan bəlli olur ki, dövlətlər arasında iqtisadi münasibətlərin 79 faizdən çoxu məhz xarici ticarətin payına düşür. artıq, elə bir mərhələdəyik ki, hər bir ölkənin iqtisadi tələblərinin ödənilməsi, xarici ticarətsiz mümkün deyil. Bu məsələdə azad və proteksionist siyasət fərqləndirilir. azad ticarətdə dövlətin müdaxiləsi minimum səviyyədə olur, proteksionist siyasətdə isə, dövlət bir sıra metodlardan istifadə edərək, öz daxili bazarını xarici rəqabətdən qorumağa çalışır. Dünya əmtəə dövriyyəsinə hər il 10 faiz yeni əmtəənin cəlb edilməsi, xarici ticarətin inkişaf səviyyəsinin hansı səviyyədə olduğunu açıq şəkildə göstərir.

Bir çox ölkələrdə, eləcə də Azərbaycanda, Ələtdə, azad ticarət zonaları yaradılır ki, burada da. xarici ticarət əlaqələri rüsumsuz həyata kecirilir, daha da inkişaf edir. Azərbaycan iqtisadiyyatının dünyada bir brendə çevrilməsi üçün də, xarici ticarət dövriyyəsi daha da artırılmalı, rəqabətə davamlı məhsullar istehsal edilməlidir, çünki ölkənin büdcəsinə və sosial - iqtisadi inkişafına təsir edən əsas amillərdən biri, məhz xarici ticarətdir. Azərbaycanın gerçəkləşdirdiyi enerji siyasəti bütövlükdə regionun siyasi və iqtisadi rifahına xidmət edir və Prezident İlham Əliyev də bildirib ki, Azərbaycan Respublikasının həyata keçirdiyi neft və qaz layihələri bu gün dünyada enerji inkişafının möhkəm bünövrəsidir [6, s. 620].

Azərbaycanda da, xarici ticarət əlaqələrinin qurulması üçün, səmərəli forma və metodlar seçilməli, eləcə də, tətbiq edilməlidir. İqtisadi metodlarla yanaşı, inzibati metodlardan da istifadə edilməlidir. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, hər bir ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya etməsində vacib amildir. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilən və 12 dekabr 1994 - cü ildə qüvvəyə minən " Əsrin Müqaviləsinin " imzalanması və fəaliyyətə başlaması, maliyyə institutları və beynəlxalq təşkilatlarla əməkdaşlığın sürətlənməsinə zəmin yaratdı [7 , s. 192].

Hər hansı bir supermarketə girən zaman, bir ölkənin qəhvəsi, başqa birinin meyvəsi, digərinin geyimlərini görürüksə, bu zaman xarici ticarətin təsirlərini görmüş oluruq. Beynəlxalq ticarət yolu ilə, ölkələr öz bazarlarını genişləndirir, yaxud da, özlərində olmayan mal və xidmətləri əldə etmə imkanı qazanırlar. Beynəlxalq ticarət olmazsa, bazar rəqabətli olmaz və bu da, istehlakçının məhsulu daha baha qiymətə əldə etməsinə gətirib çıxara bilər.

Qlobal ticarət sayəsində, istehlakçılar öz ölkələrində olmayan məhsul və xidməti daha baha almaqla da üzləşə bilərlər.Adam Smit və Devid Rikardo kimi siyasi iqtisadçılar da, öz əsərlərində beynəlxalq ticarətin əhəmiyyətini vurğulayırlar. Yenə də, bəziləri bunun kiçik ölkələr üçün pis nəticələr doğura biləcəyini iddia edirlər.

Hər hansı bir ölkə məhsulu səmərəli şəkildə istehsal edə bilmirsə, onu başqa ölkə ilə ilə ticarət edərək əldə edə bilər ki, bu da, beynəlxalq ticarətdə ixtisaslaşma adlanır. Adam Smitin " Xalqların sərvəti " əsərində ölkələrin öz müqyisəli üstünlüklərinə uyğun olaraq, ixtisaslaşması, ticarət etməsindən fayda ələ edə biləcəyi göstərilmişdir. Burada, Portuqaliyanın üzüm bağlarına sahib olması, buna görə də, ucuz şərab hazırlaya biləcəyi, İngiltərənin isə, otlaqlara sahib olduğu üçün, daha aşağı qiymətə parça hazırlaya biləcəyi göstərilir.

Müqayisəli üstünlüklər nəzəriyyəsinə görə, hər iki ölkə ən sonunda bu reallıqlarla barışacaq və ticarətlə məşğul olmaq üçün, onlara daha baha başa gələn, səmərəsiz məhsullar istehsal etməyi dayandıracaq. Çünki hər iki ölkə öz səylərini onlar üçün səmərəli məhsul istehsal etməyə yönəltsələr, bunun əvəzində digərini əldə etmək üçün ticarət etsələr, bu prosesdən xeyirlə çıxacaqlar. Belə olan halda, Portuqaliya parça, İngiltərə isə şərab istehsalını dayandıracaq, ancaq onlara səmərə verən məhsullar istehsal etməyə başlayacaqlar.

Qlobal iqtisadiyyatın yüksəlişinin əsas açarı kimi qəbul edilən xarici ticarət, tələb, təklif, qiymətlərlə yanaşı, qlobal hadisələrə də təsir edə bilir. Məsələn, hər hansı bir ölkədə baş verən bir siyasi dəyişiklik, burada işçi qüvvəsinin dəyərinin artmasi ilə nəticələnə bilər, bu da öz

10.61764/lasr.1.2023.208-212

növbəsində başqa ölkədə həmin məhsulun dəyərinin artmasına gətirib çıxara bilər.

Xarici ticarətin səmərəliliyinin artması, ölkəyə xarici investisiyaların gəlməsi üçün şans da yaradır.Bu da, öz növbəsində ölkədən məşğulluğun səviyyəsinin artmasına, Ümumi Daxili Məhsulun həcminin yüksəlməsinə səbəb olur, rifaha müsbət təsir göstərir.

Beynəlxalq ticarətdə ərzaq, geyim, ehtiyat hissələri, avadanlıqlar, valyuta, yağ, zərgərlik, bankçılıq, konsaltinq də daxil olmaqla, hər növ məhsul və xidmətin satışı həyata keçirilir. Beynəlxalq ticarət prinsipcə daxili ticarətə çox bənzəsə də, bir çox fərqləri var və bu, daha mürəkkəb bir prosesdir, daha baha başa gəlir. Buna səbəb, ölkələr arasında dil və mədəniyyət, qanunlar arasında fərqlərin olmasıdır.

Azərbaycan da, öz ticarət əlaqələrini ildən - ilə daha da genişləndirir, iqtisadi əlaqələrimiz daha da güclənir. Azərbaycan 120 - dən çox ölkəyə məhsul ixrac edir, 170 - dən çox ölkədən isə məhsul idxal edir. Bir çox ölkələrdə, Azərbaycan Ticarət Evləri də yaradılıb. 2022 - ci ilin Yanvar - Sentyabr aylarına nəzər yetisək görərik ki, xarici ticarət dövriyyəsi 39.8 milyard ABŞ dolları olub və bu da, 2021 - ci illə müqayisədə 74 faiz daha çoxdur. Bunun da, 29.5 milyard ABŞ dolları ixracın, 10.3 milyard ABŞ dolları isə idxalın payına düşür. Xarici ticarətdə müsbət saldonun dəfələrlər artaraq, 25.4 milyard ABŞ dollarına yüksəlməsi, iqtisadi inkişafın, uğurun göstəricisidir. 2023 - cü ildə neft-qaz sektoruna yatırılan vəsaitin həcmi 8.8 faiz, qeyri - neft sektoruna yatırılan vəsaitin həcmi isə 2.5 dəfə artırılıb. Qonşu ölkələrlə Azərbaycanın ticarət dövriyyəsi ilbəil artmaqda davam edir. 2021 - ci ildə Türkiyə ilə ticarət dövriyyəsi 4 milyard dollara çatıb və Rusiya ilə 20 - 25 %, İranla 30% artıb. Qeyri- neft məhsullarımızın ixracı 14 % artıb və bu məhsullarımızın əsas idxalçısı olan qonşu Rusiyadır. Keçən il Prezident İlham Əliyev Çində keçirilən " Bir kəmər, bir yol " beynəlxalq konfransında iştirak edib, həmin ölkənin rəhbəri ilə görüşüb. Bu tədbirdə 10 - a yaxın sənəd imzalanıb, 800 milyon dollar həcmində müqavilələr bağlanıb, onların icrasına başlanılıb. Çində Ticarət və şərab evləri də açılıb. Çində keçirilmiş ikinci "Bir kəmər, bir yol" BƏF-da qeyd edidiyi kimi, ölkəmizdə 260 milyard dollarlıq investisiya qoyulmuş, bunun da 50%-ni xarici investisiyalar təşkil edir. Azərbaycanda yaradılmış biznes mühiti dünyada olan öncül mühitlərdən biridir. Dünya Bankının "Doing Business-2022" hesabatına görə, ölkəmiz biznes mühitinə görə 25-ci pillədə yer almışdır [8].

Prezident İlham Əliyevin bütün bu uğurlu iqtisadi səylərinin nəticəsidir ki, hər il ölkəmizin iqtisadi nəticələri daha da yaxşılaşır, valyuta ehtiyatlarımız daha da artır. Qlobal ticarətdə ölkələr özlərinə sərf edən məhsulu istehsal etməli, istehsalı səmərə verməyən məhsulu isə başqa ölkədən idxal etməlidir. Yəni bir məhsulu istehsal etmək üçün ölkədə resurs bolluğu, ucuz işçi qüvvəsi varsa,texnologiya, kapital varsa, dövlət üçün onun istehsalı səmərə verir, çünki, həmin məhsul az xərclər istehsal olunur və başqa ölkələr onu uyğun qiymətə ala bilərlər.

Beynəlxalq ticarətdə ixtisaslaşma resurslardan səmərəli istifadə imkanı yaradır ki, bu da, ölkələrin əmtəə istehsal etmək və əldə etmək imkanlarını maksimum dərəcədə artırır. Qlobal azad ticarətə qarşı çıxanlar, onun inkişaf etməkdə olan ölkələrə zərər verdiyini desələr də, həqiqət belədir ki, qlobal iqtisadiyyat davamlı dəyişiklik vəziyyətindədir və inkişaf etdikcə, onun iştirakçıları da inkişaf edirlər.

Beynəlxalq ticarətin bir çox faydaları var və bu əsasən, daha çox müştəri bazası əldə etmək, daha çox mənfəət, gəlir, xarici valyutanın əldə edilməsidir. Beynəlxalq ticarətə təkan verən bir sıra amillər var ki, onlara xalqların mütəlif sahələrdə, texnologiya, təhsil, hökumət siyasətləri, əmək qanunları, maliyyə imkanları arasında fərqlər daxildir.

Beynəlxalq ticarətə təkan verən amillər olduğu kimi, ona əngəl olan amillər də var. Bunlara hökumətlərin beynəlxalq ticarətin qarşısını almaq, daili bazarı qorumaq üçün həyata keçirdikləri siyasətlər, subsidiyalar, tariflər, kvotalar,idxal, ixrac lisenziyaları daxildir. Qloballaşma yolu ilə dünya ölkələrinin iqtisadiyyatları bir - birinə qarışır, inteqrasiya edir.

10.61764/lasr.1.2023.208-212

Qloballaşma istehlakçılara müxtəlif seçimlər təklif edir, bu da, rəqabətin artmasına, qənaətcil və yüksək keyfiyyətli malların istehsalına səbəb olur.

İki və ya daha çox dövlətin ticarətində məhkəmə sistemi, valyuta münasibətləri, hökumət siyasətləri, iqtisadiyyat, qanunlar, bazar bu ticarətə təsir göstərir.Müasir dövrdə müxtəlif iqtisadi mövqeyə malik olan ölkələr arasında ticarəti asanlaşdırmaq və əsaslandırmaq üçün, Ümumdünya Ticarət Təşkilatı kimi bəzi beynəlxalq təşkilatlar yaradılıb. Bu cür təşkilatlar hər zaman, beynəlxalq ticarətin asanlaşmasına və böyüməsinə çalışıblar.

**Nəticə**

Nəticə olaraq deyə bilərik ki, hər nə qədər dövlətlər mütəlif vasitə və metodlardan, tariflərdən, kvotalardan istifadə edərək, beynəlxalq ticarəti məhdudlaşdırmağa çalışsalar da, xarici ticarət bütövlükdə iqtisadiyyatlara fayda verir, tərəqqiyə səbəb olur. Ölkələr özləri üçün səmərəli, az xərclə başa gələn məhsulları istehsal edib, baha başa gələn məhsulları isə idxal etsələr, prosesdən daha qazanclı çıxa bilərlər. Qənaətcil, keyfiyyətli, rəqabətə davamlı məhsulların istehsalında, qlobal azad ticarətin rolu böyükdür və daha çox mənfəət əldə etmək, iqtisadiyyatlarını genişləndirmək istəyən ölkələr, xarici ticarətlə məşğul ola bilərlər. Resurslarından səmərəli istifadə edən, ixracı genişləndirən ölkələr digərləri ilə müqayisədə daha çox xarici valyuta əldə edir, iqtisadi nəticələrini yaxşılaşdırır, xalqının gələcək rifahını təmin etmək gücündə olurlar.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. A.M.Məhərrəmov, F.M.Qarayev, K.A.Sarıyev, Abışlı L.V. Müasir Bankçılıq Sistemi, Bakı " Təknur " - 2015, -767 s.
2. Ə.H.Ələkbərov, M.Ə.Vəliyev, S.M.Məmmədov, M.K.Ramazanov, Beynəlxalq iqtisadi təşkilatlar, Çaşıoğlu - 2010, -377 s.
3. Federik. S. Mişkin, Pul, Bank və Maliyyə bazarlarının İqtisadiyyatı, Federic. S. Mishkin, 2016, 2013, 2010 TEAS Press Nəşriyyat ,- 2021, -617 s.
4. Fərhad Mehbalıyev - İqtisadiyyata giriş – Bakı,- 2018 - 489 s.
5. H.Ə. Mirzəyeva - İqtisadiyyatın tənzimlənməsi - Bakı ,- 2015, " Avropa nəşriyyatı ".- 356 s.
6. Hikmət Babaoğlu, Dünya Siyasəti və Beynəlxalq Münasibətlər, Bakı, - 2014, -674 s.
7. N. Y. Mikayılova, Azərbaycan iqtisadiyyatı, Bakı - 2018, " Müəllim " nəşriyyatı, -311 s.
8. https://president.az/az/articles/view/32878


**Амал Гасанли**
**Али Гусейнли**

## СУЩНОСТЬ ВНЕШНЕЙ ТОРГОВЛИ

***РЕЗЮМЕ***

В статье дается обширная информация о сущности, значении внешней торговли. Также при анализе данных, представленных в статье, использовались методы сравнения и синтеза.

В статье сделан вывод о том, что страны, которые эффективно используют свои ресурсы, расширяют экспорт, получают больше иностранной валюты по сравнению с другими, улучшают свои экономические результаты.

***Цель исследования*** – без внешней торговли невозможно представить ни одну страну, ведь роль внешней торговли в будущем развитии страны и повышении благосостояния народа огромна. В данной статье основной целью исследования является понять значение

10.61764/lasr.1.2023.208-212

внешней торговли в экономической жизни страны, определить направления развития современного положения Азербайджана во внешней торговле, а также рассмотреть ее отрицательные и положительные стороны.

***Методология исследования*** – в исследовании использовались такие методы, как сравнение, наблюдение, обобщение, анализ и синтез**.**

***В итоге можно сказать***, что сколько бы стран ни пытались ограничить международную торговлю с помощью специальных средств и методов, тарифов, квот, внешняя торговля приносит пользу экономике в целом и ведет к прогрессу. Страны могут получить больше прибыли от этого процесса, если они будут производить эффективную недорогую продукцию для себя и импортировать дорогостоящую продукцию. В производстве экономичной, качественной, конкурентоспособной продукции велика роль глобальной свободной торговли, и страны, желающие получить больше прибыли и расширить свою экономику, могут заниматься внешней торговлей. Страны, которые эффективно используют свои ресурсы и расширяют экспорт, получают больше иностранной валюты, чем другие, улучшают свои экономические результаты и способны обеспечить будущее благополучие своего народа.

***Ключевые слова***: *внешняя торговля, международные экономические отношения, импорт и экспорт, глобализация*

**Amal Hasanli**
**Ali Huseynli**

## THE ESSENCE OF FOREIGN TRADE

### *ABSTRACT*

*The article provides extensive information about the essence and significance of foreign trade. Also, when analyzing the data presented in the article, methods of comparison and synthesis were used.*

*The article concludes that countries that effectively use their resources, expand exports, receive more foreign currency compared to others, improve their economic results.*

***The purpose of the study*** - Without foreign trade, it is impossible to imagine any country, because the role of foreign trade in the future development of the country and the improvement of the welfare of the people is huge. In this article, the main goal of the study is to understand the importance of foreign trade in the economic life of the country, to determine the development directions of the current situation of Azerbaijan in foreign trade, and to examine its negative and positive aspects.

***Research methodology*** – The research used methods such as comparison, observation, generalization, analysis, and synthesis.

***As a result,*** we can say that no matter how many countries try to restrict international trade using special means and methods, tariffs, quotas, foreign trade benefits the economy as a whole and leads to progress. Countries can make more profit from the process if they produce efficient, low-cost products for themselves and import high-cost products. In the production of economical, quality, competitive products, the role of global free trade is great, and countries that want to get more profit and expand their economy can engage in foreign trade. Countries that effectively use their resources and expand exports get more foreign currency than others, improve their economic results, and are able to ensure the future well-being of their people.

***Keywords***: *foreign trade, international economic relations, import and export, globalization*